*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 510-515*

https://doi.org/10.62837/2025.8.510

**ƏLİYEVA PAKİZƏ İSRAYIL QIZI**
ADPU-nun Şəki filialı, baş müəllim
*aliyeva.pakize.filolog@mail.ru*
orcid.org/0000-0003-3769-6198

# "MOZALAN BƏYİN SƏYAHƏTNAMƏSİ" ƏSƏRİNİN MÜƏLLİFLİYİNƏ DAİR

**Xülasə**

XX əsrin ilk yarısı Azərbaycan ədəbiyyatşünaslığında əvəzsiz xidmətləri olan Salman Mümtaz (1884-1941) sosializmin repressiya maşınından əziyyət çəkən, həyatı və maarifpərvər ideyaları susdurulan sənətkarlardandır. O bədii, publisistik və elmi yaradıcılığı ilə nəinki yaşadığı zaman kəsiyində tanınmış imzalarından birinə çevriumiş, həmçinin bütövlükdə ədəbiyyat və mədəniyyətimizin dərin qatlarına çıraq tutmağa nail olan ciddi folklorşünas, kitabfürüş və araşdırmaçı olmuşdur. Dahi sənətkarın yaradıcılığı bir məqalə şəklində araşdırılmayacaq qəədər zəngindir. S.Mümtaz yaradıcılığında "Molla Nəsrəddin" xüsusi mərhələni təşkil edir. Tədqiqat mövzusu olaraq Salman Mümtazın "Molla Nəsrəddin" satirik jurnalında işıq üzü görən "Mozalan bəyin səyahətnaməsi" silsilə yazılarının müəllifliyi məsələsi, eləcə də əsərin mövzusu və ideyası seçilmişdir. Bu zaman əsərin mətni əsas götürülməklə bərabər, mövzuyla bərabər dəyərli ədəbiyyatşünasların tədqiqatlarına da isnad olunmuşdur.

**Açar sözlər:** Salman Mümtaz, "Molla Nəsrəddin", "Mozalan bəyin səyahətnaməsi", müəllif, həmmüəllif, səyahətnamə

**Aliyeva Pakiza**

## ABOUT AUTHORSHIP OF "TRAVEL NOTES OF MOZALAN BEY"

**Abstract**

Salman Mumtaz (1884-1941), who made an invaluable contribution to Azerbaijani literary criticism in the first half of the 20th century, is one of the artists who suffered from the repressive machine of socialism, whose life and enlightened ideas were suppressed. With his artistic, journalistic and scientific work, he became not only one of the famous visiting cards of his time, but also a serious folklorist, bookseller and researcher who managed to shed light, as a whole, on the deep layers of our literature and culture. The creativity of a genius artist is too rich to be explored in the form of an article. "Molla Nasreddin" is a special stage in the work of S. Mumtaz. The question of the authorship of the cycle of works by Salman Mumtaz - "Mozalan Bey's Travel Notes", published in the satirical magazine "Molla Nasreddin", as well as the theme and idea of the work was chosen as the topic of the work. The text of the work is taken as the basis, and they also refer to the research of valuable literary critics.

**Key words:** Salman Mumtaz, "Molla Nasreddin", "Mozalan Bey's travel notes", author, co-author, travel notes.

## ОБ АВТОРСТВЕ «ПУТЕВЫЕ ЗАМЕТКИ МОЗАЛАН БЕЯ»

**Резюме**

Салман Мумтаз (1884-1941), внёсший неоценимый вклад в азербайджанское литературоведение первой половины XX века, является одним из художников, пострадавших от репрессивной машины социализма, чья жизнь и просвещенные идеи были заглушены. Своим художественным, публицистическим и научным творчеством он стал не только одной из известных визитных карточек своего времени, но и серьезным фольклористом, книготорговцем и исследователем, сумевшим пролить свет, как в целое, на глубокие пласты нашей литературы и культуры. Творчество гениального художника слишком богато, чтобы его можно было исследовать в виде статьи. «Молла Насреддин» — особый этап в творчестве С. Мумтаза. В качестве темы исследования был выбран вопрос об авторстве цикла сочинений Салмана Мумтаза - «Путевые заметки Мозалан-бея», опубликованных в сатирическом журнале «Молла Насреддин», а также тема и идея произведения. За основу берется текст произведения, а также ссылаются на исследования ценных литературоведов.

**Ключевые слова:** Салман Мумтаз, «Молла Насреддин», «Путевые заметки Мозалан-бея», автор, соавтор, путевые заметки.

Görkəmli ədəbiyyatşünas alim, şair Salman Məmmədəmin oğlu Əsgərov (Mümtaz) (1884-1941) ədəbiyyat və mədəniyyət tariximizə Azərbaycan ədəbiyyatı qaynaqlarının toplanması, tədqiqi işinə ömrünün 30 ildən çoxunu sərf etmiş vətənpərvər ziyalı, işıqlı şəxsiyyət kimi daxil olmuşdur. Özü də bədii yaradıcılıqla məşğul olan ədib uzun müddət Türküstanda Azərbaycan mətbuatının, “Molla Nəsrəddin” jurnalının təbliği, yayılması ilə məşğul olmuşdur. Eyni zamanda, jurnalın fəal əməkdaşlarından biri olub, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar və başqaları ilə dostluq etmişdir. 1918-ci ildə Bakıya qayıdan S.Mümtaz Xalq Cümhuriyyətinin qurulmasını alqışlayan vətənpərvər ədəbiyyatşünas kimi fəaliyyətə başlayır.

Görkəmli ədəbiyyatşünasın fərqli zamanlarda işıq üzü görən yazılarında Azərbaycan ədəbiyyatını təmsil edən 483 şairin adını çəkmiş, onlardan 104 şair haqqında ətraflı məlumat vermişdir. Demək olar ki, “Kitabi Dədə Qorqud”dan üzü bu yana elə bir əsər və ya müəllif yoxdur ki, Salman Mümtaz araşdırmalarından kənarda qalmış olsun. Ağız ədəbiyyatının toplanması sahəsində Salman Mümtaz Vəli

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 510-515*

Xuluflu, Hənəfi Zeynallı, Hümmət Əlizadə kimi cəfakeş ədəbiyyatşünaslarla (təəssüf ki, repressiyanın ağır pəncəsindən qurtula bilməyən) yan-yana çalışmış, çoxsaylı topluların işıq üzü görməsinə nail olmuşdur. Aşıq poeziyası nümunələrindən ibarət "El şairləri" silsilə kitabları bu günün ədəbiyyatşünasları üçün layiqli mənbədir.

Salman Mümtaz "Kommunist" nəşriyyatında "Unudulmuş yarpaqlar" ədəbiyyat seriyasından 24 şairin (Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Mirzə Şəfi, Ağa Məsih Şirvani, Molla Pənah Vaqif və b.) yaradıcılığına aid silsilə araşdırmalar çap etdirimişdir. Bütövlükdə Salman Mümtaz 23 il ərzində 20 kitab nəşr etdirmişdir. [8]

Tədqiqatımızın mövzusu görkəmli ədibin irsinin tam şəkildə araşdırılması yox, "Molla Nəsrəddin" jurnalında işıq üzü görən "Mozalan bəyin səyahətnaməsi"əsəri və onun müəllifliyi məsələsidir. Sözügedən məsələ son illərdə bir sıra tədqiqatçı-alimlərin diqqətini çəkmiş, onlardan bir qismi S.Mümtazı həmmüəlliflər arasında qeyd etmiş, bir qismi isə əsərin sadəcə Ə.Haqverdiyevə aid olması ilə bağlı qənaətlərini ifadə etmişlər. Bəs belə fikir ayrılığı hardan qaynaqlanır? "Mozalan" kimin imzasıdır? "Mozalan" jurnalın 1906-cı il 2-ci sayından başlayaraq nəşri boyu - 1930-cu ilin 26-cı sayına kimi "Molla Nəsrəddin"də istifadə olunan gizli imzadır. "Mozalan" - antroponim - köməkçi şəxs adı, heyvan adı bildirən zooantroponimdir. Jurnaldakı "Ağcaqanad", "Mığmığa", "Diddili", "Vızvıza", "Hüd-hüd" kimi bir yerdə qərar tutmayan, xisləti sancmaq, narahat etmək, incitmək, oyatmaq, qan sovurmaq olan həşərat adı bildirən entomonimlərdən biridir.

Tədqiqatçı E.Qasımovaya əsasən, Əsli "Mozalan" olan bu imzanın "Molla Nəsrəddin"də "Mozalan bəy", "Məşədi Mozalan bəy", "Dilinin ucundan avara düşən Məşədi Mozalan bəy", "Əz-tərəfi-imza Mozalan", "Filan və filan Mozalan", "Molla Nəsrəddin idarəsinin təbibi Mozalan", "Qardaşın Mozalan Tağı", "Sənin nökərin Mozalan" kimi bənzəri və törəmələri var. "Mozalan" C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Q.Şərifzadə və S.Mümtazın istifadə etdiyi müştərək gizli imza – koynonimdir. [5, s.24] İsnad olunan məqalədə tədqiqatçı "Molla Nəsrəddin" jurnalında istifadə olunan müştərək imzalarla bağlı çoxsaylı nümunələr gətirir. Ümumiyyətlə, "Molla Nəsrəddin" ədəbi məktəbinə daxil olan ədiblərin əksəriyyətinin təxəllüs və ədəbi imzaları ilə bağlı bəzi fikir müxtəlifliyi mövcuddur. Bu, eyni ədəbi məktəbi təmsil edən ədiblərin yaradıcılığındakı üslubi yaxınlıqla bağlıdır. Belə fikir müxtəlifliyin qeyd etdiyimiz kimi, "Mozalan" imzası və "Mozalan bəyin səyahətnaməsi" ilə bağlıdır. Haqqında söhbət gedən əsərlə bağlı tədqiqatçılarda fikir ayrılığı yaradan məsələlərdən biri Ə.Haqverdiyevin xatirələrindən başlanır. Ə.Haqverdiyevin "Molla Nəsrəddin" haqqında xatiratında oxuyuruq: *"Bir dəfə cəm olub "İbrahim bəyin səyahətnaməsi"ndən söhbət edirik: burada "Molla Nəsrəddin" dostlarından Faiq Nemanzadə, Salman Mümtaz, Qurbanəli Şərifzadə var idi. Bunu da deməliyəm ki, "Molla Nəsrəddin"in cəmi Türküstanda şöhrət və nüfuz qazanmasına səbəb Salman Mümtaz olduğu kimi, Naxçıvan tərəfində də Qurbanəli Şərifzadə idi.*

*"İbrahim bəyin səyahətnaməsi"ndən söhbət olduqda mən dedim:*

*- Nə olardı bu kitaba nəzirə bir "Səyahətnameyi-Molla Nəsrəddin" də olaydı. Aya, görəsən Molla Nəsrəddin islam aləmini səyahət etsə, onun başına nə müsibətlər gələ bilər?*

*Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi:*

*- Gəlin biz "Mozalan"ı gəzdirək, ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürək, hər kəs onu özü görüb-bildiyi yerə aparıb səyahət etdirsin; oxuyanlar güman etsinlər ki, həqiqət bu adam gəlib, buraları görüb bu felyetonları yazmış.*

*Belə də oldu. Birinci felyetonu mən başlayıb, Mozalanı Bakıya kimi gətirdim, Bakıdan Məşhədə onu Salman Mümtaz apardı, İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirdi. Beləliklə, "Mozalan bəyin səyahətnaməsi" ortalığa çıxdı"* [4, s. 280-281]

Məşhur satirikə isnad edən bir sıra tədqiqatçılar, o cümlədən E.Qasımova, Ə.Tahirzadə, D.Məmmədova və başqaları Salman Mümtazın müəllifliyi fikrini dəstəkləyirlər. "Əbdürrəhim bəy Haqverdiyev və Qurbanəli Şərifzadəylə birgə yazdığı, 1908-ci ildə "Molla Nəsrəddin"də çıxan "Mozalan bəyin səyahətnaməsi" ciddi yaradıcılıq uğurudur" [7, s. 8] Qeyd etmək yerinə düşərdi ki, adı çəkilən müəlliflərdən heç birinin arxivində əsərin – məktubların əlyazması qalmadığından bir qism tədqiqatçı əsərin müəllifinin sadəcə Əbdürrəhim bəy Haqverdiyev olması qənaətindədir. Salman Mümtaz əlyazmalarının böyük bir qisminin terrora məruz qalmasını (yandırılmasını) nəzərə alsaq, bu fikrə qarşı da apponentlik etmək mümkündür. Mozalan bəy bir qəzetəçidir, lakin səyahət boyunca bəylik alıb necə "Mozalan bəy" və müqəddəs ziyarətkaha gedib "Məşhədi Mozalan bəy" olmasının tarixçəsi açıqlanır. "Molla Nəsrəddin"in 1908-ci il 10 və 11-ci saylarında "İdarədən" qeydi ilə Mozalan bəyin səyahətə çıxacağı və səyahətin yol xəritəsi haqda məlumat verilir. Tədqiqatçıların yekun qənaəti bundan ibarətdir ki, jurnalın 1908-ci ilin 11, 12, 13, 15, 16, 17, 18, 19, 20, 22, 23, 24, 25-ci nömrələrində çıxan səyahət məktubları Əbdürrəhim bəy Haqverdiyev, 26, 27, 28, 29, 30, 31, 32, 33, 35, 36, 38, 40-cı nömrələrində gedən məktublar Salman Mümtaz tərəfindən yazılmışdır. 1908-ci ilin 7 dekabrından sonra jurnalda belə bir qeyd yer alır: *"Lazım görürük oxucularımıza xəbər verək ki, Məşhədi Mozalanbəyin Xorasanda olduğunu şah duyub və hakimə yazıb ki, onu zəncirbənd edib Tehrana göndərsin. Lakin Məşhədi Mozalanbəyin yanına bir ağsaqqal gəlib bu əhvalatı gizli xəbər verir. Ertəsi sabah Mozalanbəy dərviş paltarına girib Bakıya can atır. Orada da dayanmayıb düz iki həftə bundan qabaq Tiflisə gəldi. Burada bir həftə qalandan sonra İrəvan tərəfə yola düşdü və indi bu saat İrəvandadır. Orada bir neçə gün qaldıqdan sonra başlayacaq Qafqazın bəzi şəhərlərini gəzməyə və gəzə-gəzə gördüklərini və eşitdiklərini yazıb göndərəcək ki, jurnalımızda çap etdirək".* Bu qeyddən sonra bir də növbəti məktub 1909-cu ilin 4-cü nömrəsindən işıq üzü görür. 1909-cu ilin 4, 10, 18, 21, 22, 27, 28, 42, 44, 49-cu və 1910-cu ilin 7 və 14-cü nömrələrində gedən məktublar isə Qurbanəli Şərifov

tərəfindən yazılmışdır (Əziz Şərifin atası barədə xatirələrində bu barədə ətraflı məlumat tapmaq müküündür). Səyahətinə Tiflisdən başlayan Mozalan bəy Yelizavetpol-Gəncə quberniyasında olur. Burda müəllifin Mozalan bəyin əsas tənqid hədəfi çar məmurları və rus ağalığıdır. Müəllif qatara bilet almaq üçün gəldiyi vağzalda gördüyü mənzərəni təsvir edərək yazır: *"Zalda çox adam var idi: övrət, uşaq, kişi, çinovnik"* [4, s.16] Bu qeyddə "çinovnikin" əlahiddə bir qrup kimi götürülməsi fikrimizə sübutdur. Daha maraqlı bir cəhət isə Gəncəyə gedən Mozalanbəyin Yelizavetpol adı və şəhərin ayrı-ayrı hissələrinə verimiş başqa rus adlarına eyhamla dediyi fikirlərdir. Eyni zamanda Mozalanın bəylik alması, yeni pasportunda "Mozalan bəy" kimi qeyd olunması da diqqət çəkir. Köhnə tanışı Mozalan bəyə deyir ki, sən bəyliyə yaraşan heç bir işi görmürsən, araq içmirsən, borc almırsan, kiməsə quyu qazmırsan, ən əsası *"donosbazlıq"* etmirsən. Deməli, donosbazlıqla yalançı bəylik alanlar da rus siyasətinin simasını göstərir.

Salmaz Mümtaza aid olan məktublar Mozalanbəyin müqəddəs yerlərə gedib "Məşhədi Mozalanbəy" olmaq üçün Bakı, Aşqabad, Qoçan, Məşhəd, Xorasan, Nəcəfül-Əşrəfdən verdiyi məlumatlardan ibarətdir. "Mozalan bəy"in "Məşədi Mozalan bəy" olması səbəbi də əsərin Haqverdiyevə məxsus sonuncu hissəsinə təsadüf edir: *"Mən ərz elədim ki, mən tiflisliyəm, adım da Mozalan bəydir.*

*Dedi: - Bəli, eşitmişəm. Məşədi Mozalan bəy sizsiniz?*

*Ürəyim əvvəl bir gupp elədi. Dedim: Bağışlayın, ağa, mən Məşədi deyiləm.*

*Buyurdu: İnşaallah məşədi olarsız..."* [4, s. 35]

Bu yerdə qeyd etmək yerinə düşərdi ki, iki hissə həqiqətən də eyni satirik üslubda yazılsa da, müəlliflərin fərdi üslubi keyfiyyətləri diqqətimizi çəkir. Məs, ilk hissədə Gəncədə hamamın təsviri ilə ikinci hissədəki Xorasanda hamamın təsviri üslub baxımından fərqlənir. Həmin məktublarda oxuyuruq: *"Məşhəddə üç mindən ziyadə tüllabi-elm, axund, molla və müdərris var, iyirmidən ziyadə mədrəsə var, hər mədrəsənin mövqufatı var və mövqufatın mütəvəllisi var. Bunlardan əlavə bir də şəhərdə say və hesabsız dərviş, naqqal, dua yazan, cin tutan və rəml atan var"* [4, s. 48] Mozalanbəyi təəccübləndirən isə bu "üləmaların" bolluğu yox, gerçək elmdən uzaq olmalarıdır. Mozalanbəylə bir tüllabın – tələbənin dialoqu bu mədrəsələrdə nə dini, nə də dünyəvi elmələrin öyrədilməməsindən xəbər verir. Uzun illər ərzində Şərq ölkələrində səyahətdə olan və əlyazmaların toplanması ilə məşğul olan Salman Mümtaz qələmindən çıxan bu hissələrdə təəssübkeş ziyalının təhsil və savadlanma ilə bağlı dərin müşahidələri əksini tapmışdır. Həmçinin burada bir neçə dəfə müqayisə üçün Şəkinin də adı çəkilir. Məktubların Q.Şərifzadə tərəfindən yazılan üçüncü qismi İrəvan, Naxçıvan, Baş Noraşen, Şərur, Ordubad, Əylis, Culfa ərazilərindən xəbərlər verir. Ümumiyyətlə, məktubların hamısında şimallı-cənublu Azərbaycanın dərdli-ələmli əhalisinin bütün dərdləri dilə gətirilmişdir. Əsər ruhu baxımından satirik olsa da, müəlliflərin "Molla Nəsrəddin" ruhunda xalqın taleyinə acıması diqqət çəkir. Ümumi janr xüsusiyyətləri baxımından əsər Zeynalabdin

Marağayinin "İbrahim bəyin səyahətnaməsi", A.N.Radişşevin "Peterburqdan Moskvaya səyahət" əsərləri ilə daha çox müqayisə olunsa da, sanki ruhən Cəlil Məmmədquluzadənin "Anamın kitabı"nda irəli sürülən Vətənin fərqli təhsil sistemləri və meyillər arasında parçalanması məsələsi ilə səsləşir.

Beləliklə, tədqiqatımızın nəticəsini aşağıdakı şəkildə ifadə edə bilərik:

- "Mozalan bəyin səyahətnaməsi" satirik əsər olmaqla bərabər "Molla Nəsrəddin" ədəbi məktəbinin ruhunu saxlayır;
- Əsərin müəllifliyi məsələsində müqayisəli fikirlər olsa da, fikrimizcə, daha çox üç müəllifin – Ə.Haqverdiyev, S.Mümtaz və Q.Şərifovun hesab olunması məqsədəuyğundur;
- Yuxarıda səsləndirdiyimiz qənaəti əsərin ayrı-ayrı parçalarında oxşar səhnələrin təsvirindəki fərqlərlə sübut edə bilərik;
- əsər ictimai eyiblərin kəskin ifşa olunduğu ən maraqlı satirik əsərlərdəndir və s.

"Mozalan bəyin səyahətnaməsi" xalq dərdinin, xalqın problemlərinin dilə gətirilməsi baxımından çox önəmli əsərlərdir. Əsər tədqiqata cəlb olunsa da, onun həm "Molla Nəsrəddin" məktəbinə aid olan müəlliflərin, həm də ədəbiyyatımızda səyahətnamələrin tədqiqində xüsusi əhəmiyyəti var.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ənvəroğlu Ç. Salman Mümtaz haqqında düşüncələr. "Ədalət" qəzeti, № 171 (2019) 23 noyabr 2019-cu il.
2. Ənvəroğlu Ç. Salman Mümtaz haqqında düşüncələr. "Ədalət" qəzeti, № 172 (2019) 26 noyabr 2019-cu il.
3. Haqverdiyev Ə. "Molla Nəsrəddin" haqqında xatiratım // Cəlil Məmmədqulizadə. Məqalələr. Xatirələr. B., 1967
4. Haqverdiyev Ə., Mümtaz S., Şərifov Q. "Molla Nəsrəddin" jurnalında səyahətnamələr. Bakı, "Elm", 76 səh.
5. Qasımova E. "Mozalan bəyin səyahətnaməsi": mülahizələr, qənaətlər. "Ədəbiyyat Qəzeti", 8 avqust 2020, səh. 24-25
6. Məmmədova D. Ön söz. Haqverdiyev Ə., Mümtaz S., Şərifov Q. "Molla Nəsrəddin" jurnalında səyahətnamələr. Bakı, "Elm", 76 səh. – səh.3-12
7. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, "Avrasiya Press", 2006, 400 səh.
8. Tahirzadə Ə. Salman Mümtaz. Bakı, "Kür" nəşriyyatı, 2002, 16 səh.
9. Atakişiyeva H. "Mozalanbəyin səyahətnaməsinin" ifşaedici gücü. https://manera.az/index.php?newsid=12610

**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dos. Ulduz Mürşüdova**